# Azərbaycanla Avropa İttifaqı arasında əlaqələr davamlı xarakter daşıyır

Azərbaycan hazırda bir sıra beynəlxalq təşkilatlar, o cümlədən, Avropa İttifaqı (Aİ) ilə sıx əməkdaşlıq edir. Dövlət başçısı tərəfindən müəyyən olunan respublikamızın xarici siyasətinin əsas istiqamətlərindən biri də bu qurumla səmərəli və davamlı əməkdaşlığın inkişafına xüsusi diqqət yetirilməsidir.

Ölkəmizlə Aİ arasında çoxşaxəli əlaqələr davamlı olaraq inkişaf edir. Prezident İlham Əliyev oktyabrın 6-da Avropa İttifaqının respublikamızdakı nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Petr Mixalkonun etimadnaməsini qəbul edərkən ölkəmizlə Avropa İttifaqı arasında çox səmərəli və uğurlu əməkdaşlıq olduğunu vurğulayıb. Dövlətimizin başçısı söhbət zamanı Azərbaycanla Aİ arasında uzunmüddətli əməkdaşlığın çox geniş gündəliyinin olduğunu, fəaliyyət zamanı mühüm uğurlar əldə edildiyini bildirib. Prezident İlham Əliyev daha sonra deyib: "Bizim ikitərəfli münasibətlərimiz, regional inkişaf, postmüharibə vəziyyəti ilə bağlı baxışlarımız tamamilə üst-üstə düşür. Biz Avropa İttifaqına səylərin səfərbər olunması və postmüharibə vəziyyətinə töhfə verilməsi prosesində böyük tərəfdaşımız və dürüst vasitəçi kimi güvənirik. Bizim ənənəvi əməkdaşlıq sahələrimiz yaxşı məlumdur və biz böyük nailiyyət əldə etmişik. On il bundan əvvəl bu binada Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığa, enerji təhlükəsizliyinə dair Bəyannamə imzalandı. Bu, Cənub Qaz Dəhlizinin icrası istiqamətində çox mühüm addım idi…".

Dövlətimizin başçısı, həmçinin Azərbaycanın önəmli layihələri sırasında xüsusi yer tutan Cənub Qaz Dəhlizinin tamamlanması ilə bağlı planların bununla məhdudlaşmadığını, ölkəmizin Aİ-nin bir sıra digər üzvlərinin də təchizatını təmin etmək gücünün olduğunu diqqətə çatdırıb.

Söhbətdə Avropa Komissiyasının Azərbaycanın nəqliyyat sektoruna böyük əhəmiyyət verməsinin təsadüfi xarakter daşımadığı da xatırladılıb. Bakı Dəniz Ticarət Limanı və Azad İqtisadi Zonanın imkanlarının mövcudluğunun bunu deməyə əsas verdiyi bildirilib. Bütün bunların isə təkcə iqtisadi, nəqliyyat sahəsində əməkdaşlıq baxımından deyil, həm də ümumilikdə regionda sabitlik və təhlükəsizlik baxımından mühüm əhəmiyyət daşıdığı qeyd edilib.



***Makroiqtisadi sabitliyin qorunması, iqtisadiyyatın diversifikasiyasının davam etdirilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, dünya iqtisadi sisteminə inteqrasiyanın sürətləndirilməsi, xarici iqtisadi əlaqələrin və beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi, xarici dövlətlərlə ikitərəfli əlaqələrin inkişafı müstəqil Azərbaycanın daha da qüdrətlənməsində mühüm önəm daşıyır, ölkəmizin dünyada nüfuzunu daha da artırır.***

Bu cür səmərəli əməkdaşlığa əsasən deyə bilərik ki, Azərbaycan milli maraqları çərçivəsində Avropa İttifaqı ilə əməkdaşlığa böyük əhəmiyyət verir. Öz növbəsində, Avropa İttifaqı da ölkəmizlə münasibətlərin inkişafında maraqlı tərəf kimi çıxış edir. Bu gün Azərbaycanla qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan tərəfdaşlıq münasibətlərinin davam və inkişaf etdirilməsi Avropa İttifaqı üçün xüsusi önəm daşıyır. Çünki Cənubi Qafqaz regionunun güc mərkəzi kimi çıxış edən, mühüm geostrateji üstünlüklərə malik olan Azərbaycanla əməkdaşlıq siyasi və iqtisadi perspektivlər baxımından önəmli dividentlər vəd edir. Azərbaycanın Aİ-nin 9 üzvü ilə strateji tərəfdaşlıq haqqında sənəd imzalaması bunun bariz ifadəsidir.

Xatırladaq ki, Aİ ölkələri Azərbaycanın əsas xarici ticarət tərəfdaşlarıdır. Son 10 ildə Azərbaycanda əsas kapitala yönələn xarici investisiyaların yarıdan çoxu, qeyri-neft sektoruna birbaşa xarici investisiyaların isə 35,3 faizi bu təşkilatın üzv dövlətlərinin payına düşüb.

Prezident İlham Əliyev hələ 2014-cü ilin iyun ayında Aİ ilə əlaqələrimizi xarakterizə edərək bildirib ki, Azərbaycan Aİ-yə mümkün qədər yaxın olmaq arzusundadır. Bu, bizim üçün strateji mahiyyət daşıyan məsələdir və bu əlaqələrin gələcəkdə böyük potensialı vardır.

Azərbaycan bu gün Aİ ilə Tvinninq, TAİEX, SİGMA, Texniki Dəstək, Büdcəyə Dəstək alətləri çərçivəsində də əməkdaşlıq edir və bu istiqamətlərdə 1992-ci ildən etibarən Azərbaycana 582 milyon avro məbləğində yardım göstərilib.

Azərbaycan ilə Aİ arasında aqrar sahədə ticarət dövriyyəsinin həcminin artırılması da diqqət mərkəzində saxlanılır. Ötən il respublikamızla bu qurum arasında aqrar sahədə ticarət dövriyyəsinin həcmi 240,7 milyon dollar təşkil edib. Aİ ölkələri ilə ticarət dövriyyəsinin həcmini artırmaq üçün böyük potensial mövcuddur. Azərbaycana ötən il bu ölkələrdən 166 milyon dollarlıq məhsul idxal olunub, Azərbaycandan isə 74,7 milyon dollarlıq ixrac həyata keçirilib. Cins heyvan, içkilər, uşaq yeməkləri, tərəvəz konservləri idxalın əsasını təşkil edib. İxracın 96 faizi fındığın, 1,7 faizi nar şirəsinin payına düşüb.

Yeri gəlmişkən, Kənd Təsərrüfatı Nazirliyi Aİ ilə birgə "Azərbaycanda kənd yerlərinin inkişafı üzrə milli siyasətin gücləndirilməsi" Tvinninq Layihəsinə başlayıb.

Nazirliyin məlumatına görə, layihənin əsas komponentləri kənd yerlərinin inkişafı və kənd təsərrüfatına dövlət dəstəyinin müəyyənləşdirilməsi, proqramlaşdırılması və idarə edilməsidir. İki il müddətində həyata keçirilməsi nəzərdə tutulan layihəyə İtaliya, Polşa və Litvadan olan mütəxəssislər cəlb olunub.

Xatırladaq ki, nazirlik indiyədək Avropa İttifaqı ilə birlikdə bir sıra layihələri uğurla həyata keçirib. İyirmi ildən artıq müddətdə davam edən əməkdaşlıq geniş təcrübə mübadiləsinə imkan verib. Yeni başlayan layihə isə Azərbaycanda kənd təsərrüfatının inkişafında, bu sahə üçün əhəmiyyətli olan kadrların hazırlanması və biliklərin artırılmasında xüsusi rol oynayacaq.

***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 10 oktyabr.- S.4.